# Hz. Mehdi (ə.s)-ın adları

**ƏL MEHDI**: Hidayət olunmuş, hidayətə çatmış
**ƏL HADİ**: Hidayətə sövq edən, doğru yola çatdıran
**ƏL QAİM**: Haqq üçün qiyam edən, ayaqda dayanan
**ƏL HÖCCƏT**: Rəddi mümkün olmayan qəti dəlil
**ƏL MUNTAZAR**: Hər kəs tərəfindən gözlənilən
**MEHDİ-İ MUNTAZAR**: Gözlənilən Mehdi
**İMAMI MUNTAZAR:** Gözlənilən imam (mənəvi lider)
**XƏLƏF-İ SALEH:** Allah övliyalarının ləyaqətli xəlifəsi (mənəvi lideri)
**MƏNSUR**: Allah tərəfindən kömək edilən
**SAHİBİL-ƏMR**: İlahi ədaləti tətbiq etməklə məsul olan
**SAHİBİL-ZAMAN**: Zamanın sahibi
**VƏLİYİ ƏSR:** Əsrin vəlisi, zamanın tək hakimi, zamanın tək rəhbəri
**MEHDİ-İ MƏVUD:** Vəd edilmiş Mehdi
**İMAMI ƏSR**: Əsrin imamı (mənəvi lideri)
**SAHİBÜD-DAR**: Yurdun sahibi (mənəvi sahibi)
**BAKİYYƏTULLAH**: Allahın yer üzündə geriyə qalan tək sübutu və son ilahi mənəvi lideri
**QAİMİ ALİ-MƏHƏMMƏD (Ə.S)**: Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn, qiyam edəcək olan Mehdi
**ƏL XƏTTİM**: Xətmedən, sona çatdıran
**NAHİYƏTÜL-MÜQADDESƏ**: Qeyd olunmuş istiqamət, ən uca və qüdsi



Əbdülməlik İsami (1111): Məkkədə iqamət edən tanınmış tarixçilərdəndir. O, "Sımt-ul Nucum-il Avali" deyə bilinən dörd cildlik tarix kitabında belə yazır: "Hz. **Mehdi (ə.s)-ın ləqəbləri isə HÖCCƏT, XƏLƏFİ SALEH, QAİM, MUNTAZAR, SAHİB-ÜZ ZAMAN VƏ HAMISINDAN DAHA MƏŞHUR OLAN İSƏ MEHDİDİR..."** (Sımt-ul Nucum-il Avali, cild 4, səh. 138)
Mahmud ibn Vahib Kızoğlu Bağdadi-i Hənəfi: "Cəvhərət-ul Kəlam" adlı kitabda belə yazar: "... Hz. **Mehdi (ə.s)-ın LƏQƏBLƏRİ İSƏ MEHDİ, QAİM, MUNTAZAR, SAHİB-ÜZ ZAMAN, HÖCCƏTDİR...** (Cevheret-ul Kəlam, səh. 157)
Əbdürrəhmani-Sufi. Farsca olan "Mirat-ul Sirr" kitabının yazıçısıdır. "Tuhfeti İsna Aşeriyye" kitabının yazıçısı Əbdüləziz Dəhləvinin atası Şah Vəliyullah Dəhləvi, "əl-İntibah fi Selasili Evliyaullah və Esanidi Varisi Rəsulullah sallallahu əleyhi və alih" adlı kitabda ondan nəql

edərək, İmam Zaman (Hz. Mehdi (ə.s)) haqqında belə yazır:... **(HZ. MEHDİ (Ə.S)-IN) LƏQƏBLƏRİ İSƏ MEHDİ, HÖCCƏT, QAİM, MUNTAZAR, SAHİB-ÜZ ZAMANDIR.**
Ömər ibn Zahir rəvayət edir: "Biri, imam Cəfər Sadiqə; "Qaimə (Hz. Mehdi (ə.s)-a), Əmirəl möminin, deyə salam göndərə bilərikmi", deyə soruşdu. İmam buyurdu; "Xeyr, Allah Təala bu ləqəbi yalnız hz. Əliyə vermiş, ondan əvvəl və sonra kimsə bu ləqəblə xatırlana bilməz." Adam soruşdu: **"YAXŞI ONU (HZ. MEHDİ (ə.s)-I) NƏ DEYƏ SALAMLAYIM?" HƏZRƏTLƏRİ: "SALAM OLSUN SƏNƏ EY BAKİYƏTULLAH DEYƏRƏK" BUYURDU.**
https://www.harunyahya.info/az/meqaleler/hz-mehdi-es-in-adlari